# MÜHƏNDİS (MADDİ-TEXNİKİ TƏCHİZAT XİDMƏTİ ÜZRƏ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Təchizat-mallarının qəbulu və bölgüsü
2. Təchizat mallarının ekspertizası
3. Daşınmalar
4. Ehtiyyatların idarə olunması
5. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə qayda və normaları

**1.Təchizat nə deməkdir?**
A) Malların istehsalının tənzimlənməsi prosesi
B) Malların satışının tənzimlənməsi prosesi
C) Malların saxlanmasının tənzimlənməsi prosesi
D) Malların istehsalçıdan istehlakçıya doğru hərəkətinin tənzimlənməsi prosesi
E) Mal-materialların istehlakçıdan istehsalçıya doğru hərəkətinin tənzimlənməsi prosesi

**2. Siyirtmə və klapanlarda təzyiq hansı ölçü vahidi ilə göstərilir?**
A) Mpa
B) MVt
C) KVt
D) N
E) $C^0$

**3.Oksigen və digər qaz balonlarının daşınması qaydaları?**
A) Açıq yük maşınlarında
B) Metal konteynerlərdə
C) Hər bir balonda qoruyucu kolpak olmaqla qəfəsli konteynerdə və bu məqsəd üçün düzəldilmiş xüsusi maşınlarda
D) Bütün nəqliyyat vasitələrində
E) Vaqonlarda

**4. Alqı-satqı müqaviləsində malın kimə verilməsi nəzərdə tutulur?**
A) İstehsalçiya
B) Xidmət göstərənə
C) Alıciya
D) Satıcıya
E) Nəqliyyat vasitəsinin sürücüsünə

**5. Tikinti-quraşdırma işləri üçün nəzərdə tutulmuş malın bölgüsü aşağıdakı halların hansında mümkündür?**
A) Alqı-satqı müqaviləsi bağlandıqdan sonra
B) Malın dəyəri ödənildikdən sonra
C) Mal anbara mədaxil olunduqdan sonra
D) Mal anbardan məxaric olunduqdan sonra
E) Malın keyfiyyətinin standartlara uyğunluğu yoxlandıqdan sonra